**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası**

**Ali təhsilin magistratura səviyyəsi üzrə**

**"Humanitar və sosial ixtisaslar qrupu"nun**

050213 – "Beynəlxalq münasibətlər və Diplomatiya" ixtisaslaşması üçün

# "ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ"

**fənninin proqramı**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tədris-Metodiki Şurasının 27 sentyabr 2019-cu il tarixli iclasının qərarı ilə (protokol № 1) təsdiq edilərək nəşr hüququ verilmişdir.

**BAKI–2019**

**Tərtib edən:** **Elçin Əhmədov**
*professor, siyasi elmlər doktoru*

**Elmi redaktor:** **Əli Həsənov**
*professor, tarix elmləri doktoru*

**Rəyçilər:** **Musa Qasımlı**
*professor, tarix elmləri doktoru*

**Kərim Şükürov**
*professor, tarix elmləri doktoru*

**E.İ.Əhmədov.**"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" fənninin proqramı. Bakı, "Zərdabi Nəşr" MMC. 2019. 120 səh.

Proqram ali məktəblərin beynəlxalq münasibətlər, diplomatiya, konfliktologiya, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya, tarix, regionşünaslıq və digər humanitar ixtisaslar üzrə magistratura səviyyəsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

© Əhmədov E.İ, 2019
© "Zərdabi Nəşr" MMC, 2019

# I HİSSƏ
# TƏŞKİLATİ-METODİKİ BÖLMƏ
# İZAHAT VƏRƏQİ

Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişdir. "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalmışdır.

XX əsrin sonunda Sovetlər İttifaqında yaranmış vəziyyətdən istifadə edən ermənilər özlərinin xaricdəki himayədarlarının köməkliyi sayəsində Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağa dair yenidən ərazi iddiaları irəli sürdülər. Azərbaycan tərkibində siyasi, iqtisadi, sosial və mədəni muxtariyyətə malik olan Dağlıq Qarabağda yaşayan erməni icması ilk əvvəl sosial-iqtisadi vəziyyətlərinin ağır olmasını bəhanə edərək Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdi və bunu öz müqəddəratını təyin etmək hüququ kimi əsaslandırmağa çalışdı. Şübhəsiz ki, ermənilərin bu ərazi iddiaları hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmaqla yanaşı, XX əsrin 20-ci illərində olduğu kimi əsrin sonunda da, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə həyata keçirilməyə başlandı.

SSRİ-nin süqutu ərəfəsində Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistan Respublika-

sı ilə birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət bunu reallaşdırmaq üçün Dağlıq Qarabağdan 60 minə qədər azərbaycanlını soyqırımı və təcavüzə məruz qoyub didərgin salmış, eləcə də Ermənistandan 250 mindən çox azərbaycanlını tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya etmişdir.

Ümumiyyətlə, 1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə İttifaqın hakim dairələri tərəfindən himayə edilən və mono-etnik dövlət yaratmağa nail olan Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı açıq-aşkar təcavüzü nəticəsində dinc sakinlər qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır. XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırım isə bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir.

Eyni zamanda, 1992-1993-cü illərdə mono-etnik dövlət yaratmağa nail olan Ermənistan Respublikası ona himayədarlıq edən dövlətlərin köməyindən istifadə edərək Azərbaycan ərazisinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. Nəticədə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal olunmuş Azərbaycan ərazilərindən, 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqələri dağıdıldı, talan edildi və yandırıldı. Hazırda Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Son illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri, Azərbaycanın əzəli torpaqlarında Ermənistan dövləti-

nin yaradılması, xalqımızın milli mədəniyyət nümunələrinin, toponimlərinin ermənilər tərəfindən özününküləşdirilməsi barədə tarixi faktlara əsaslanan qiymətli əsərlərin yazılaraq çap olunması çox əhəmiyyətlidir. Bu baxımdan bir sıra dəyərli əsərlər yazılmışdır ki, bunun nəticəsində XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər ermənilərin nəinki Qarabağ və Zəngəzurda, hətta İrəvanın özündə də heç vaxt etnik çoxluq təşkil etmədikləri faktlarla sübuta yetirilmişdir.

20 ildən artıqdır ki, Ali məktəblərin magistratura səviyyəsində tədris olunan "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" fənninin məqsədi son iki əsrdə azərbaycanlılara qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti, eləcə də bu millətçi-şovinist siyasətin əsas mahiyyətinin öyrənilməsidir. Bu fənnin tədris olunması gənclərin elmi maarifləndirilməsi və vətənpərvərlik ruhunun artmasına kömək olmaqla yanaşı, ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır.

Proqramda hər bir mühazirə mövzusunun məzmunu konkret izah edildikdən sonra tələbələrin seminar məşğələlərinə hazırlaşması üçün suallar verilmiş və kursun dərindən öyrənilməsinə kömək məqsədilə ədəbiyyat siyahısı və tövsiyə edilən əlavə informasiya resursları göstərilmişdir.

"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" fənni, humanitar elmlər sırasına daxil olmaqla siyasi elmlərinin ümumnəzəri, o cümlədən sahə fənnləri ilə qarşılıqlı əlaqəlidir.

“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi” fənni üzrə proqram Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 08 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavr səviyyəsi üzrə ixtisasların (proqramların) siyahısı”nın “Humanitar və sosial ixtisaslar qrupu”na daxil olan “050213 –beynəlxalq münasibətlər” ixtisası üçün tərtib edilmişdir. Proqram Təhsil haqqında Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın tələblərinə, AR NK-nin “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın təsdiq edilməsi haqqında 2010-cu il 23 aprel tarixli 75 №-li, “Ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları”nın təsdiq edilməsi haqqında 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarlarına, bakalavr səviyyəsinin 050213 – “Beynəlxalq münasibətlər və Diplomatiya” ixtisaslaşması üzrə Təhsil Proqramına, Avropa Kredit Transfer Sisteminə və digər müvafiq normativ sənədlərlə müəyyən edilmiş minimum tələblərə uyğun olaraq tərtib edilmişdir.

“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi” fənni – “Beynəlxalq münasibətlər və diplomatiya” ixtisaslaşması üzrə magistr hazırlığını təmin edən təhsil proqramının strukturuna seçmə fənni kimi daxil olunmuş və fənnin məzmununda nəzərdə tutulmuş məsələləri özündə geniş şəkildə ehtiva etmişdir. Fənnin tədrisi üçün 60 saat o cümlədən, 30 saatı mühazirə, 30 saat seminar nəzərdə tutulmuşdur.

## II HİSSƏ
## Mövzuların tematik planı
## "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" fənni üzrə saat bölgüsü

| № | Mövzular | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| **Mövzu 1** | Ermənistanın Azərbaycana təcavüzkarlıq siyasətinin tarixi: Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin mərhələləri. | 2 | 2 |
| **Mövzu 2** | XX əsrin əvvəllərində "Boyük Ermənistan" iddiaları və azərbaycanlılara qarşı soyqırımı siyasəti (1905-1906; 1918-1920). | 2 | 2 |
| **Mövzu 3** | 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları. | 2 | 2 |
| **Mövzu 4** | Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və onun Azərbaycan üçün ağır nəticələri. | 2 | 2 |
| **Mövzu 5** | Sovet hakimiyyəti illərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları. | 2 | 2 |
| **Mövzu 6** | XX əsrin 80-ci illərinin sonunda Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddiaları və sovet rəhbərliyinin siyasəti | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| **Mövzu 7** | XX əsrin 80-ci illərinin sonu-90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və münaqişənin beynəlxalq-hüquqi aspektləri | 2 | 2 |
| **Mövzu 8** | Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması. | 2 | 2 |
| **Mövzu 9** | Münaqişənin nizama salınmasına dair ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti | 2 | 2 |
| **Mövzu 10** | Ermənistan-Azərbaycan münaqişəsi BMT Təhlükəsizlik Şurasında | 2 | 2 |
| **Mövzu 11** | Digər beynəlxalq təşkilatların (Islam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, və s.) münaqişəyə dair mövqeyi | 2 | 2 |
| **Mövzu 12** | Ermənistanın dövlət terrorizmi siyasəti və ondan Azərbaycana qarşı istifadə edilməsi. | 2 | 2 |
| **Mövzu 13** | Ermənistan-Azərbaycan münaqişəsi Qərb dövlətlərinin siyasətində | **2** | 2 |
| **Mövzu 14** | Region dövlətlərinin (Rusiya, Türkiyə, İran və s.) münaqişəyə dair siyasəti | 2 | 2 |
| **Mövzu 15** | Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Azərbaycanın dövlət siyasəti | 2 | 2 |
| **CƏMİ:** | 60 saat | 30 | 30 |

# III HİSSƏ
# MÖVZULAR VƏ ONLARIN MƏZMUNU

Müasir dövrdə beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr üçün “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi” fənninin nəzəri əhəmiyyəti çox böyükdür. Proqramda Ermənistanın Azərbaycana təcavüzkarlıq siyasətinin tarixi: Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin mərhələləri; XX əsrin əvvəllərində “Böyük Ermənistan” iddiaları və azərbaycanlılara qarşı soyqırım siyasəti (1905-1906; 1918-1920); 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları; Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və onun Azərbaycan üçün ağır nəticələri; Sovet hakimiyyəti illərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları; XX əsrin 80-ci illərinin sonunda Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddiaları və sovet rəhbərliyinin siyasəti; XX əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçılıq siyasətinin nəticələri; Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması; Münaqişənin nizama salınmasına dair ATƏT-in Minsk qrupunun yaradılması və onun vasitəçilik fəaliyyəti; Ermənistan-Azərbaycan münaqişəsi BMT Təhlükəsizlik Şurasında; Digər beynəlxalq təşkilatların (Islam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, və s.) münaqişəyə dair mövqeyi; Ermənistanın dövlət terrorizmi siyasəti və ondan Azərbaycana qarşı istifadə edilməsi; Ermənistan-Azərbaycan münaqişəsi Qərb dövlətlərinin siyasətində; Ermənistan-Azərbaycan münaqişəsi Qərb dövlətlərinin siyasətində; Region dövlətlərinin (Rusiya, Türkiyə, İran və s.) münaqişəyə dair siyasəti; Er-

mənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Azərbaycanın dövlət siyasəti kimi mövzular kursun əsas hissəsini təşkil edir.

Bu baxımdan digər elm sahələri kimi, bu fənnin əvəzsiz nəzəri və praktiki rolu vardır. Tələbə, nəzəri-praktiki fənn kimi "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" fənninin dərin mənimsəməlidir.

**Fənn üzrə ümumi balların verilməsi qaydası.** Tələbə fənn üzrə maksimum 100 bal toplaya bilər ki, bu balların yarısı, yəni 50 balı onun semestr ərzindəki fəaliyyətinə, digər yarısı – 50 balı isə imtahanın nəticələrinə görə toplanır. Balların maksimum miqdarı üzrə bölgü aşağıdakı kimi müəyyənləşdirilir:

1) 10 bal dərslərə davamiyyətinə görə;

2) 10 bal müəllimin rəhbərliyi ilə magistrantın sərbəst işinə görə;

3) 30 bal semestr ərzində üç dəfədən az olmayaraq, cari qiymətləndirmə üzrə seminar dərslərinin və semestr ərzində üç dəfə (əyani şöbə üzrə semestrin hər beşinci həftəsi) keçirilən kollokviumun nəticələrinə görə;

4) 10 bal referatın və ya kurs işinin hazırlanmasına və müdafiəsinə görə;

**Qeyd:** Fənn üzrə referat və ya kurs işi nəzərdə tutulmadığı halda ona ayrılan 10 bal seminar dərslərinə əlavə olunur.

5) 50 bal imtahanın nəticəsinə görə.

Semestrin nəticələrinə görə bakalavr aldığı yekun bal imtahan balı ilə toplanır və yekun nəticə maksimum 100 bala bərabərdir.

"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" fənni üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə bakalavrın biliyi, Avropa Kredit Transfer Sisteminə (AKTS) görə aşağıda qeyd olunan cədvələ müvafiq olaraq qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı | qeyri-kafi | F |
| 51-60 bal | qənaətbəxş | E |
| 61-70 | Kafi | D |
| 71-80 | Yaxşı | C |
| 81-90 | çox yaxşı | B |
| 91-100 | əla | A |

# MÖVZU 1. ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZKARLIQ SİYASƏTİNİN TARİXİ: ERMƏNİLƏRİN AZƏRBAYCAN TORPAQLARINA KÖÇÜRÜLMƏSİNİN MƏRHƏLƏLƏRİ.

**1.1. Qarabağ tarixi etnoqrafik əyalət kimi.** Qarabağ ərazisi qədim tarixi mənbələrdə. Qarabağ sözünün etimologiyası. Qarabağ Qafqaz Albaniyasının tərkib hissəsi kimi. Qarabağ I-VI əsrlərdə alban çarları Arşakilərin hakimiyyəti dövründə. VII-VIII əsrlərdə Qarabağ Mehrani knyazlarının hakimiyyəti dövründə. Atabəylər dövlətinin hakimiyyəti dövründə Qarabağın Azərbaycanın dövlət-ərazi bölgüsünün tərkib hissəsi kimi. Qarabağ Ərəb xilafəti dövründə. Qarabağ IX-X əsrlərdə Sacilər, X əsrdə Salarilər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy Eldənizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər), XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkib hissəsi kimi. XII-XIV əsrlərin dövlət-ərazi bölgüsü ənənələrinə uyğun olaraq Səfəvilər dövləti (1501-1736) tərkibində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi.

Qarabağ Azərbaycan siyasi həyatının mərkəzlərindən biri kimi (XIII-XVIII əsrin 40-cı illəri). Rusiya çarı I Pyotrun göstərişi

ilə ermənilərin Bakı, Dərbənd və Quba ərazilərinə köçürülməsi. XVIII əsrin birinci rübündə Rusiya imperatoru tərəfindən ermənilərə diqqət göstərilməsi. XVIII əsrin ikinci yarısında Kür və Araz çayları arasında olan bütün torpaqları əhatə edən Azərbaycan dövləti olan müstəqil Qarabağ xanlığı. Qarabağ əhalisinin sayı və etnik tərkibi. Qarabağ əhalisinin sayı və etnik tərkibi çar məmurları tərəfindən tərtib olunan təsvirlərdə. Qarabağ xanlığı 1747-1805-ci illərdə. Kürəkçay müqaviləsi. XIX əsrin əvvəllərində Qafqaz qoşunlarının baş komandanı P.D.Sisianovun 1805-ci il 22 may 19 №-li raportu. Qarabağ məlikləri. Qarabağ Rusiya imperiyası tərkibində. Çarizmin Qarabağda üsul-idarəsi. Kürəkçay müqaviləsinə görə 1822-ci ildə Qarabağ xanlığı ləğv edilib əvəzində eyni adlı əyalət yaradılması. "Şuşa qəzası"nın 1868-ci ildən Yelizavetpol (Gəncə) quberniyasına verilməsi. Şuşa qəzasının vahid inzibati-siyasi idarəsini itirməsi. Şuşa qəzası Xüsusi Zaqafqaziya komitəsinə tabe olan Yelizavetpol quberniyası (1917-ci il) və Azərbaycan Xalq Cümhuriyyəti tərkibində Gəncə quberniyası daxilində (1918-1920-ci illər).

**1.2. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin mərhələləri.** Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi. Rusiya çarı I Pavel tərəfindən ermənilərin Qazaxda məskunlaşdırılması. Qarabağ xanlığının ləğv edilməsi. Qarabağ əhalisinin sayı və etnik tərkibi, çar məmurları Yermolov və Mogilyovski tərəfindən tərtib edilmiş "Qarabağ əyalətinin təsviri"ndə. 1846-cı il inzibati ərazi bölgüsü. XIX əsrin əvvəllərində çar Rusiyasının Qafqazı işğal etməsini və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsi haqqında N.Şavrovun qeydləri. Dağlıq Qarabağın Azərbaycan-alban əhalisinin qriqorianlaşması və erməniləşməsi cəhdləri. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndlərinin salınması. Çar Rusi-

yasının XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə aparаrkən "erməni amili"ndən siyasi alət kimi istifadə etməsi. XIX əsrin əvvəllərindən etibarən Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə başlanması. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri kimi mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisinin müəyyən edilməsi. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin kütləvi surətdə İran, Türkiyə və Cənubi Azərbaycandan Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi. 1828-1830-cu illər ərzində Qarabağın dağlıq hissəsinə 200 min ermənininin köçürülməsi. Ermənilərin Yelizavetpol və İrəvan quberniyalarında, Tiflis, Borçalı, Axalsixi, Axalkalaki qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirilməsi N.N.Şavrovun qeydlərində. Gülüstan və Türkmənçay müqavilələri və nəticələri. Çar I Nikolayın (1825-1855) İrəvan və Naxçıvan xanlıqları əsasında qondarma "Erməni vilayəti" yaradılması haqqında 1828-ci ilin mart tarixli fərmanı və vilayətin ləğv olunması (1840). 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi. 1877-1879-cu illər Rusiya-Türkiyə müharibəsi illərində Türkiyədən Cənubi Qafqaza ermənilərin köçürülməsi. Qarabağın etnik tərkibinin köçürülmələr nəticəsində dəyişdirilməsi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Cənubi Qafqaza ermənilərin köçürülməsi davam etdirilməsi. 1915-ci il ərzində ermənilərin Naxçıvan, Sürməli, Eçmiadzin, İrəvan, Aleksandropol, Yelizavetpol, Cavanşir və Şuşa qəzalarına yerləşdirilməsi. Dağlıq Qarabağa ermənilərin köçürülməsinin 150 illiyi bağlı abidə və işğaldan sonra abidənin ermənilər tərəfindən dağıdılması. 1917-ci ilin "Kavkazski kalendar"ın yazıları və Qarabağın etnik

tərkibi və onun dəyişdirilməsi haqqında statistik məlumatlar. Ermənistan SSR-in Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə nəşr olunmuş statistik məcmuəsi və İrəvan şəhərinin etnik tərkibi. Z.Korkodyanın 1932-ci ildə İrəvanda nəşr olunmuş "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabı və İrəvan, Yelizavetpol, Tiflis quberniyalarının etnik tərkibi. Erməni millətçilərinin XIX əsrin sonunda – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratması və "Böyük Ermənistan" yaratmaq iddialarının yeni mərhələsi.

## MÖVZU 2. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ "BOYÜK ERMƏNİSTAN" İDDİALARI VƏ AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI SİYASƏTİ (1905-1906; 1918-1920).

**2.1. XX əsrin əvvəllərində "Böyük Ermənistan" iddiaları.** XIX əsrin sonu – XX əsrin əvvələrində Cənubi Qafqaza ermənilərin köçürülməsi daha geniş vüsət alması və 1896-cı ildən 1908-ci illər ərzində bu regiona 400 min erməni köçürülməsi faktı N.N.Şavrovun qeydlərində. 1897 və 1917-ci il əhalinin siyahıyaalmaları və Qarabağın etnik tərkibi. XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında irəli sürülən "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirməsi. 1917-ci ildə Rusiyada baş verən fevral və oktyabr hadisələrindən sonra "Daşnaksütyun" partiyası və Erməni Milli Konqresi daha geniş fəaliyyətə başlaması. 1917-ci ilin dekabrında Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilən S.Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbəri kimi.

**2.2. Azərbaycanlılara qarşı ermənilərin soyqırımı siyasəti.** 1905-1907-ci illər inqilabının gedişində çarizmin təhriki ilə erməni-azərbaycanlı qırğınları. 1905-1906-cı illərdə ermənilər tərəfindən Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar. 1918-ci il martın 31-də və aprelin ilk günlərində azərbaycanlılara qarşı qırğınların kütləvi xarakter alması. 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə davam etdirilməsi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulduqdan sonra fövqəladə istintaq komissiyasının yaradılması və 31 mart tarixinin matəm günü kimi qeyd edilməsi. 1919-1920-ci illərdə Zəngəzur və Cavanşir qəzasında qırğınlar. 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşayan azərbaycanlının öldürülməsi və doğma torpaqlarından çıxarılması və bu faktı Z.Korkodyanın özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq etməsi. 1919-cu ilin noyabr-dekabr aylarında İrəvan quberniyasında azərbaycanlıların qətlə yetirilməsi.

## MÖVZU 3. 1918-1920-ci İLLƏRDƏ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması. Fövqəladə Təhiqat Komissiyası. 31 mart gününün Ümummilli matəm günü kimi qeyd olunması. 1918-1920-ci illərdə Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəran, Şuşa, İrəvan quberniyası ərazisində, Zəngəzur, Naxçıvan, Şərur, Ordubad, Qarsda ermənilər tərəfindən küt-

ləvi qırğınların törədilməsi. Amazaspın rəhbərliyi ilə erməni hərbi birləşmələri tərəfindən Qubada türk-müsəlman əhalisi ilə yanaşı, yəhudilərə qarşı da qırğınlar törədilməsi. 2007-ci ildə Quba şəhərində kütləvi məzarlıqların aşkar edilməsi və Quba Soyqırımı Memorial Kompleksinin yaradılması. 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsi və onun nəticələri. 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikasının yaradılması. Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən birinci qurultayında Dağlıq Qarabağı müstəqil elan etməsi. Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan və bütün XIX əsr boyunca davam etdirilmiş köçürülmə prosesi nəticəsində ermənilərin Qarabağın dağlıq hissəsində süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin baş qaldırmasına səbəb kimi.

Dağlıq Qarabağ Azərbaycan və Ermənistanın Millətlər Cəmiyyətinə qəbulu məsələsinə baxılması kontekstində. Dağlıq Qarabağ: coğrafiyası və "Dağlıq Qarabağ" anlayışı. Qafqaz İslam Ordusu Qarabağda erməni-daşnak hərbi birləşmələrinə güclü zərbə endirərək Şuşa şəhərinə daxil olması. Şuşa qəzası Müvəqqəti hökumət vaxtında Xüsusi Zaqafqaziya komitəsinə tabe olan Yelizavetpol quberniyası və 1918-1920-ci illərdə isə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində Gəncə quberniyası tərkibində. Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ilin yanvarında daşnak Ermənistan hökumətinin Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi. Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edilməsi. AXC hökumətinin 1919-cu il yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa

şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratması. Azərbaycan hökumətinin gərgin səyi nəticəsində 1919-cu il noyabrın 23-də Tiflisdə ABŞ nümayəndəliyinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan respublikaları arasında müqavilə imzalanması və nəticələri. 1920-ci il yanvar ayının 11-də Azərbaycan Respublikasının müstəqilliyi Versal Konfransının Ali Şurası tərəfindən tanınması. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoyulması. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Ermənistanın Qarabağlı diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısının alınması. 1921-ci il Qars müqaviləsi və onun şərtləri.

## MÖVZU 4. DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI VƏ ONUN AZƏRBAYCAN ÜÇÜN AĞIR NƏTİCƏLƏRİ.

1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-yə daxil edilməsi. Naxçıvanın Azərbaycandan ayrı salınması və quru əlaqələrin kəsilməsi. Sovet Rusiyasının rəhbər dairələri Qafqaz siyasətinin Q.Orconikidze və S. Kirov vasitəsilə həyata keçirilməsi. 1920-ci il iyunun 19-da Q.Orconikidze Vladiqafqazdan V.Leninə və G.Çiçerinə göndərdiyi teleqram və onun mahiyyəti. 1920-ci il iyun-iyul aylarında Dağlıq Qarabağ məsələsinin Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin (RK(b)P MK) Qafqaz Bürosunda, RK(b)P Zaqafqaziya Diyar Komitəsində, həmçinin, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində müzakirə edilməsi və nəticələri. 1921-ci il iyunun 12-də Ermənistan hökumətinin Dağlıq Qarabağın "Ermənis-

tan Sovet Sosialist Respublikasının bir hissəsi” kimi elan olunduğu haqqında dekret. Azərbaycan Xalq Komissarları Sovetinin iclasında A.Myasnikovun (Myasnikyan) Dağlıq Qarabağı “Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi” kimi elan edən bəyanatı rədd edilməsi (28 iyun 1921-ci il). N.Nərimanovun Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə verilib-verilməməsi barədə bütün Qarabağ əhalisi arasında rəy sorğusu keçirmək təklifi və nəticələri. RK(b)P MK iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində saxlanılması barədə qərarı (5 iyul 1921). AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun 1921-ci il 26 sentyabr tarixli iclası və nəticələri. Dağlıq Qarabağ muxtariyyətinin yaradılması haqqında məsələyə RK(b)P MK Zaqafqaziya Diyar Komitəsinin iclasında da baxılması (14 dekabr 1922-ci il). Azərbaycan hökuməti tərəfindən ermənilərə mədəni-milli inkişaf üçün bütün şəraitin yaradılması. Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması və onun Azərbaycan üçün ağır nəticələri. Dağlıq Qarabağ haqqında məsələnin AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunda müzakirəsi. Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılması barədə RK(b)P MK-nın qərarı. Azərbaycan Xalq Komissarları Soveti nəzdində AK(b)P MK-ya bilavasitə müraciət etmək hüququ olan Dağlıq Qarabağ işləri üzrə xüsusi komitə yaradılması. AK(b)P MK Rəyasət Heyəti Zaqafqaziya Diyar komitəsi tərəfindən DQMV haqqında qərarını müzakirə edərək Karakozovun sədrliyi ilə Kirov və Mirzəbekyans da daxil olmaqla Dağlıq Qarabağ məsələsi üzrə 3 nəfərdən ibarət Mərkəzi Komissiya yaradılması və fəaliyyəti (15 dekabr 1922-ci il). Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Diyar komitəsi plenumunda (may 1923-cü il). 1923 Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Zaqafqaziya Diyar Ko-

mitəsinin Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusunun verilməsinin təmin olunmasını AK(b)P MK-ya tapşırması (27 iyun 1923-cü il). AK(b)P MK Rəyasət Heyətinin iclasının Kirovun sədrliyi ilə Qarabağ haqqında məsələni dinləyərək qəbul etdiyi 6 bənddən ibarət qərarı (1 iyul 1923-cü il). 1923-cü il iyulun 7-də Azərbaycan MİK-in "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekreti verilməsi. Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması. Milli ərazi vahidi kimi DQMV. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının artması və Dağlıq Qarabağ termininin meydana çıxması. "Azərbaycan SSR-də dövlət idarələrinin milliləşdirilməsi haqqında" dekret. Şuşa şəhərinin DQMV-nin tərkibinə daxil edilməsi (16 iyul 1923-cü il). DQMV üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il Əsasnaməsi qəbul və tətbiq edilməsi. Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənlərinin rayon-nahiyə-kənd pillələri əsasında inzibati baxımdan bölünməsi. Şuşa şəhərinin DQMV-nin tərkibinə daxil edilməsi. Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati bölgüsü. Dağlıq Qarabağ vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilib S.Şaumyanın şərəfinə Stepanakert adlandırılması və Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməlinin qoyulması (18 sentyabr 1923-cü il). 1924-cü il noyabrın 26-da Azərbaycan, erməni və rus dillərində mətbuatda dərc edilən "DQMV haqqında Əsasnamə"də DQMV-nin Azərbaycan SSR-in tərkib hissəsi kimi təsbit olunması. Şuşa qəzasının hesabına Stepanakert (Xankəndi) və Əsgəran rayonlarının, Füzuli rayonunun ərazisi hesabına Hadrut rayonunun yaradılması.

## MÖVZU 5. SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI

**5.1. Sovet dövründə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və etnik təmizləmə siyasəti**. Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-yə daxil etməsi. "Böyük Ermənistan" yaratmaq iddiasının sovetləşmədən sonra davam etdirilməsi. 1920-1923-cü illərdə Qarabağın inzibati ərazi bölgüsündə dəyişikliklər. 1926-cı ildə keçirilən əhalinin siyahıya alınmasının ilkin yekunları və DQMV-nin etnik tərkibi. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının yaradılması və Qarabağ məsələsi. Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş verməsi və 1930-cu ilin avqustunda DQMV-nin ərazisinin 5 rayona bölünməsi. Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət kimi statusunun 1936-cı və 1977-ci illər SSRİ Konstitusiyalarında təsbit edilməsi. İkinci dünya müharibəsindən sonra erməni millətçilərinin fəaliyyət istiqamətləri. 1939-cu il avqustun 17-də Ceraberd rayonunun Mardakert, Dizaq rayonunun isə Hadrut adlandırılması. Ermənistan KP MK-nın Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı müraciəti və onun nəticəsiz qalması (1945). SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də və 1948-ci il martın 10-da qəbul etdiyi "Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarları. 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması. DQMV-nin Ermənistana birləşdirilməsi haqqında

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernikin imzası ilə qərar layihəsinin qəbul edilməsi və onun mahiyyəti (mart 1948-ci il). XX əsrin 60-cı illərində Dağlıq Qarabağ məsələsi. 1960-cı ilin noyabrında A.Mikoyanın təşəbbüsü ilə DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsi haqqında hazırlanmış sənədin Sov.İKP MK Rəyasət Heyətinin iclasında müzakirə edilməsi və qərar layihəsinin rədd edilməsi. Ermənistan SSR-in Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə nəşr olunmuş statistik məcmuəsi. Şuşa rayonu ləğv edilməsi və onun ərazisinin Stepanakert rayonuna verilməsi (4 yanvar 1963-cü il). 1964-cü ilin əvvəlində DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini N.Xruşova təklif edilməsi və nəticələri. Şuşa rayonunun yenidən təşkili (1965-ci il).

**5.2. Ümummilli lider Heydər Əliyevin Azərbaycan siyasi rəhbərliyinə gəlməsi və Qarabağ məsələsi.** Heydər Əliyevin 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubu və onun mahiyyəti. 1967-ci ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plan. Azərbaycan KP MK bürosunun 1969-cu il mayın 21-də keçirilən iclasında iki respublika arasında sərhədlərin coğrafi təsvirini təsdiq etməyə dair Azərbaycan Ali Sovetinin qərar layihəsi və mahiyyəti. 1969-cu ilin iyulun 14-də Heydər Əliyevin respublika rəhbəri seçilməsi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 1969-cu il mayın 7-də Ermənistan SSR-lə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etməsi və Heydər Əliyevin bu qərarın icrasını dayandırması. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edilməsi,

şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edilməsi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikilməsi. Şuşanın ümumittifaq səviyyəli kurort şəhərinə çevrilməsi. Şuşa şəhər "Qala divarları"nın və "Gəncə qapısı"nın bərpası. Azərbaycan KP MK-nın 1974-cü il avqustun 6-da keçirilən büro iclasında Laçın şəhərinin 50 illiyinin qeyd edilməsi qərara alınması və 1979-cu il dekabrın 5-də keçirilmiş büro iclasında Laçında tarix-diyarşünaslıq muzeyinin yaradılması barədə qərar qəbul edilməsi. Yuxarı Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq məqsədilə "Ağdam - Xankəndi (Stepanakert)" dəmiryolunun çəkilməsi. 1977-ci il SSRİ Konstitusiyası, 1978-ci ildə isə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi. SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olunması və H.Əliyevin siyasəti (noyabr 1977-ci il). 1978-ci ildə Heydər Əliyevin qətiyyəti sayəsində Stepanakert rayonu əsasında Əsgəran rayonunun yaradılması. Heydər Əliyev tərəfindən 1980-1982-ci illərdə görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə abidə - məqbərə tikilməsi, Şuşada şairə Xurşudbanu Natavana abidə qoyulması, Xankəndidə Pedaqoji İnstitut açılması və orada Azərbaycan bölməsinin yaradılması. 1969-1982-ci illərin Azərbaycanın intibah dövrü kimi səciyyələndirilməsi. 1985-ci ilin əvvəlində Ermənistan KP MK birinci katibi K.Dəmirçyan Sov.İKP MK-nın Siyasi Bürosuna qondarma "erməni soyqırımı"nın 60 illiyi ilə bağlı 24 aprel tarixinin hər il SSRİ-də anım günü kimi qeyd olunması təklifi və Heydər Əliyevin prinsipial mövqeyi.

## MÖVZU 6. XX ƏSRİN 80-ci İLLƏRİNİN SONUNDA ERMƏNİSTANIN DAĞLIQ QARABAĞA DAİR ƏRAZİ İDDİALARININ BAŞLANMASI VƏ SOVET RƏHBƏRLİYİNİN SİYASƏTİ.

XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü. XX əsrin 80-cı illərinin sonunda Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddialarının sosial-iqtisadi, siyasi-hüquqi aspektləri. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində SSRİ-də irəli sürülən "aşkarlıq" və "demokratiya" ideyalarından istifadə edilərək Xankəndində tarix və mədəniyyət abidələrini qoruyan "Krunk" adlı təşkilatın yaradılması (1986). M.S.Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsi və Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdən uzaqlaşdırılması. Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyanın Parisdə "L'Humanite" qəzetinə müsahibəsi. Dağlıq Qarabağın sosial-iqtisadi geriliyi adı altında ortaya atılan saxta tezis. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında əsassız tələblərini irəli sürən ermənilər tərəfindən iri müəssisə rəhbərlərini birləşdirən "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizə komitəsi"nin yaradılması. Moskvada ermənilərin "Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi", Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk"un açıq fəal mübarizəsi. Ermənilərin Ermənistanda genişmiqyaslı etnik təmizləmə – azərbaycanlılardan təmizləmək aksiyası və Azərbaycanlı əhalinin qovulması (22 noyabr – 7 dekabr 1988-ci il). Z.Balayanın Yerevanda "Sovetakan qrox" nəşriyyatında 100 min tirajla çap olunan və SSRİ məkanında geniş yayılan "Oçaq" (Yurd) kitabı vasitəsilə

Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirilməsi. DQMV xalq deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyasında “DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsadət qaldırmaq barəsində” qərarı (20 fevral 1988-ci il). Ermənistanda baş vermiş zəlzələ ilə əlaqədar olaraq keçmiş Yuqoslaviyadan göndərilən təyyarə və Azərbaycan Hərbi Komissarlığının və Mülki Müdafiə Qərargahının zəlzələdən zərər çəkənlərə yardım etmək üçün səfərbər edib Gümrüyə göndərdiyi təyyarənin Gümrü yaxınlığında qəsdən qəzaya uğradılması (dekabr 1988-ci il). "1988-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" 1988-ci il 24 mart tarixli qərar. Azərbaycan SSR Dövlət Statistika İdarəsinin 1988-ci ilin əvvəllərinədək olan statistik məlumatlara görə Ermənilərin Dağlıq Qarabağın sosial-iqtisadi geriliyi barədə iddialarının əsassızlığı. Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu və öz müqəddəratını təyinetmə prinsipinin əsassızlığı. DQMV-də xüsusi vəziyyət elan edilməsi, səbəbləri və nəticələri (21 sentyabr 1988-ci il). SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərarı və daha sonra ləğv edilməsi. “DQMV əhalisinin qondarma səlahiyyətli nümayəndələrinin konqresi” - “Milli Şura” 1989-cu il avqustun 16-da keçirilən iclasda Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtariyyətini tanımaqdan imtina etməsi. Azərbaycan SSR Ali Soveti Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in konstitusiya qanununu qəbul etməsi və Qanunun 5-ci maddəsi. Xüsusi İdarə Komitəsini ləğv edilməsi

və Onun əvəzində SSRİ Ali Soveti Xüsusi Komisiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-in Təşkilat Komitəsi yaradılması (28 noyabr 1989-cu il). 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin Azərbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etməsi. Ermənistan SSR Ali Soveti özünün növbədənkənar iclasında "DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in 1990-cı il üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət planına daxil edilməsi" barədə Azərbaycana qarşı qeyri-qanuni qərar qəbul etməsi (9 yanvar 1990-cı il). 1990-cı il yanvarın 15-də Ali Sovetin Rəyasət Heyətinin "DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" qərarı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qanlı qırğınların törədilməsi. Qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi haqqında "SSRİ qanunvericiliyi ilə nəzərdə tutulmamış silahlı dəstələr yaradılmasını qadağan etmək və silah qanunsuz saxlandığı hallarda onu geri almaq haqqında" 25 iyul 1990-cı il tarixli fərman və onun Ermənistan rəhbərliyi tərəfindən qəbul edilməməsi, parlament tərəfindən fərmanın Ermənistan, həmçinin Dağlıq Qarabağ ərazisində hüquqi qüvvəyə malik olmamasının bəyan edilməsi. 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat, oktyabrın 18-də isə dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul olunması. 1991-ci ildən Qarabağın dağlıq hissəsində gərginliyin artması. 1988-1991-ci illərdə İttifaqın hakim dairələri tərəfindən himayə edilən Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritməsi, dinc sakinlərin qətlə yetirilməsi. DQMV statusunun ləğv edilməsi.

# MÖVZU 7. XX ƏSRİN 80-ci İLLƏRİNİN SONU - 90-cı İLLƏRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI HƏRBİ TƏCAVÜZÜ VƏ MÜNAQİŞƏNİN BEYNƏLXALQ-HÜQUQİ ASPEKTLƏRİ

**7.1. XX əsrin sonunda Ermənistanın Azərbaycana hərbi təcavüzü**. SSRİ Nazirlər Sovetinin "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərarı (1985-ci il iyunun 20-də). Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyanın Sov.İKP MK-ya yazdığı məxfi məktub və məzmunu (noyabr 1986-cı il). 1985-ci il fevralın 21-də Ermənistan KP MK-nın sovet rəhbərliyinə 24 aprel gününün "Soyqırım qurbanlarının xatirə günü" kimi qeyd edilməsi haqqında müraciəti və onun Sov.İKP MK Siyasi Bürosunun iclasının gündəliyinə daxil edilməsi. Daşnaksütyun" partiyasının Afinada keçirilən XXII qurultayında "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul etməsi (dekabr 1985-ci il). 1987-ci il ərzində S.Ayvazyanın tərtib etdiyi "Böyük Ermənistan" xəritəsinin kiçik formatda DQMV-də geniş yayılması. Ermənistan SSR-in Qafan və Mehri rayonlarında azərbaycanlılara qarşı hücumlar edilərək onların Azərbaycana deportasiyasının başlanması. 1988-1989-cu illərdə Azərbaycanlıların Ermənistandan deportasiyası. 1988-ci ilin sonunda ermənilər tərəfindən Ermənistanda genişmiqyaslı etnik təmizləmə – azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirilməsi və faktlar.

Sumqayıt hadisələri Ermənistan və SSRİ xüsusi xidmət orqanları tərəfindən hazırlanaraq törədilmiş cinayət kimi. Ermənilər tərəfindən fevralın 28-29-da Sumqayıtda baş verən kütləvi iğtişaşlar. Sumqayıt hadisələri ilə əlaqədar istintaq və hadisələrin ermənilər tərəfindən törədilməsinə dair faktlar.

Münaqişəni nizama salmaq üçün Azərbaycan və Ermənistan tərəfinin razılığı ilə Rusiya Federasiyasının prezidenti B.Yeltsinin və Qazaxıstan prezidenti N.Nazarbayevin başçılıq etdikləri vasitəçi nümayəndəliyin münaqişə bölgələrinə səfəri və nəticələri (20-23 sentyabr 1991-ci il). Mineralnıe Vodı yaxınlığındakı Jeleznevodsk şəhərində Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən kommunike imzalanması və mahiyyəti. Qarakənd faciəsi (20 noyabr, 1991). 1991-ci ilin iyun-dekabr aylarında Ermənistan silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əsgəran rayonunun Meşəli kəndinə hücumları və qırğınların törədilməsi. 1991-ci il oktyabrın sonunda və noyabr ayı ərzində Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsinin yandırılması və talan edilməsi. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusunun yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini işğal etməsi. 1992-ci il yanvar və fevral aylarında Kərkicahan, Malıbəyli, Quşçular kəndləri işğal olunması. Qaradağlı faciəsi. 1992-ci il mayın 8-də İranın təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında üçtərəfli görüş keçirilməsi. Şuşa və Laçının işğalı. Ermənistan və Azərbaycan müdafiə nazirləri Rusiyanın Soçi şəhərində hərbi əməliyyatların dayandırılması ilə bağlı razılaşma əldə etməsi və daha sonra razılaşmanın Ermənistan tərəfindən pozulması (sentyabr 1992-ci il). Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənarda yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələrinin işğal olunması. 1991-1993-cü illərdə yaranmış hakimiyyət boşluğunun Azərbaycan Respublikasının müdafiə qabiliyyətini zəiflətməsi. Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı. 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kəndinin azad olunması. 1994-cü il ma-

yın 8-də Bişkek protokolunun imzalanması. Ermənistanın işğalçılıq siyasətinin nəticələri.

**7.2. Münaqişənin beynəlxalq-hüquqi aspektləri.** DQMV milli ərazi vahidi kimi. Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ Konstitusiyalarında. DQMV-nin Azərbaycan SSR daxilində hüquqi statusunun SSRİ Konstitusiyasının 86-cı maddəsi, Azərbaycan SSR Konstitusiyasının 83-84-cü maddələrində təsbit olunması. SSRİ Konstitusiyasının 81-ci maddəsi ilə SSRİ yaradılarkən dövlətin tərkibinə daxil olan müttəfiq respublikaların suveren hüquqlarını müdafiə etmək hüququ. 1981-ci il iyunun 16-da qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun. Dağlıq Qarabağ ermənilərinin nümayəndələri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb, Ermənistanın tərkibinə verilməsi haqqında Sov. İKP MK-ya müraciəti (1 dekabr 1987-ci il).

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azəbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-lə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etməsi. DQMV SSRİ Ali Sovetinin Millətlər Sovetində və Azərbaycan SSR Ali Sovetində. Ermənistan Parlamenti 1990-ci ilin yanvarın 9-da özünün növbədənkənar iclasında "DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in 1990-cı il üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət planına daxil edilməsi" barədə qeyri-qanuni qərarı. Azərbaycan SSR Konstitusiyasının 138-ci və DQMV haqqında Qanunun 41-ci maddəsi, DQMV-nin Xalq Deputatları Soveti və onun səlahiyyətləri. Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Dağlıq Qarabağın muxtariyyət statusu ləğv edilməsi (26 noyabr 1991-ci il). Təcavüz aktının ilə əlaqədar BMT Nizamnaməsinin 39-cu maddəsi və onun şərhi. BMT Baş Məclisinin

1967-ci il 18 dekabr tarixli 2330 (XXII) saylı qətnamə layihəsi və məzmunu. BMT Baş Məclisinin XXIX sessiyasının 3314 (XXIX) saylı qətnaməsində ilk dəfə olaraq təcavüz anlayışının mahiyyəti və məzmununun açıqlanması (14 dekabr 1974-cü il). Ermənistan Respublikasının bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, 1970-ci il 24 oktyabr tarixli beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozması və faktlar. dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmasının qeyri-mümkünlüyü haqqında 1990-cı il noyabrın 21-də qəbul edilmiş yeni Avropa üçün Paris Xartiyası. Dövlətlərin suveren bərabərliyi, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmə hüququ.

## MÖVZU 8. XOCALI SOYQIRIMI: SƏBƏBLƏRİ, NƏTİCƏLƏRİ VƏ BEYNƏLXALQ ALƏMDƏ TANINMASI.

**8.1. Xocalı soyqırımının səbəbləri və nəticələri.** Xocalının strateji coğrafi mövqeyi. Xocalı Azərbaycanın qədim dövrlərinə aid ərazilərdən biri kimi. Xocalının əhalisi, etnik tərkibi, ərazisi və digər statistik göstəriciləri. XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi. Xocalı və Xatın, Liditsa, Oradur, Xolokost, Sonqmi, Ruanda və Srebrenitsa soyqırımıları. Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi və Dağlıq Qarabağın yeganə hava limanının burada

yerləşməsi. Ermənistan silahlı qüvvələrinin Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək planları. 1991-ci il oktyabrın sonundan Xocalıya gedən bütün avtomobil yollarının bağlanması və şəhərin faktiki olaraq mühasirəyə alınması.

Keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının Xankəndindən çıxarılması zamanı silah-sursatın ermənilərə qanunsuz olaraq verilməsi. Xocalıya hücum zamanı 366-cı motoatıcı alayın tərkibində ermənilər. 25-26 fevral 1992-ci ildə Xocalının işğalı və yerli əhaliyə qarşı soyqırımı aktının törədilməsi. Faciənin xronikası. Xocalı soyqırımının miqyası. Xocalı soyqırımı dünyanın ən nüfuzlu mətbuat orqanlarının səhifələrində: "Valer aktuel" jurnalı (Fransa), "Le Mond" qəzeti (Fransa), "The Sunday Times" qəzeti (İngiltərə), "Washington Post" (ABŞ), "Krua l`Eveneman" jurnalı (Paris), "İzvestiya" qəzeti (Rusiya), "Financial Times" qəzeti (İngiltərə). "Memorial" hüquqmüdafiə mərkəzinin hesabatı. 366-cı alay. Xocalı soyqırıməı beynəlxalq cinayət kimi. Xocalı hadisələrinin beynəlxalq hüquq tərəfindən soyqırımı cinayət aktı kimi tanınmasının hüquqi əsasları.

**8.2. Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması.** Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması. 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilməsi. Azərbaycanlılara qarşı zaman-zaman törədilmiş soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərman. 2002-ci il fevralın 25-də ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti. Xocalı soyqırımı həqiqətlərinin dünya ictimaəiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti. "Xocalıya

ədalət" beynəlxalq informasiya və təşviqat kampaniyası. İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı kimi tanıyan beynəlxalq təşkilat kimi. "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" (Berlin, 2008-ci il). Xocalı faciəsi haqqında məlumatın İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrinin tarix dərsliklərinə salınması barədə razılıq (2009-cu il). ABŞ-ın 22 müxtəlif Ştatlarının qanunverici orqanları tərəfindən Xocalı soyqırımının tanınması (2010-2017-ci illər). İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İƏT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən VI sessiyasında "İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu ilə İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı arasında əməkdaşlıq haqqında" qətnamə imzalanması və "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində qəbul olunmuş qətnamədə Xocalı faciəsinə beynəlxalq səviyyədə ilk dəfə olaraq "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "İnsanlığa qarşı cinayət" kimi qiymət verilməsi (2010). Xocalı soyqırımının 14-cü, 15-ci və 16-cı ildönümü Türkiyədə, Rusiyada, Almaniyada, ABŞ-da, Ukraynada, Qazaxıstanda, Gürcüstanda, Küveytdə və dünyanın bir çox ölkələrində qeyd olunması. Xocalı qətliamı İsveçdə yaradılmış "Beynəlxalq Müharibə Qurbanları Memorialı" arxiv layihəsinə daxil edilməsi (2010-cu il). AŞPA-da Xocalı soyqırımının 19 və 20 illiyi ilə bağlı sənədlərin yayılması (2011-2012-ci illər). Soyqırıma dair Meksika Senatının qərarı (2 fevral 2012-ci il). Kolumbiyada Xocalı soyqırımının rəsmən tanınması (24 aprel 2012-ci il). Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş Soyqırımı pisləyən qətnamənin qəbul edilməsi (fevral 2012-ci il). İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının (İƏT XİNŞ) Cibutidə keçirilən 39-cu sessiyasında İƏT XİNŞ Xocalı faciəsini ilk dəfə olaraq

